AZERBAIJAN INTERNATIONAL

# Stalinin Şəxsiyyətə Pərəstiş Kultu
## Üç Dəfə Fikrimi Dəyişmişəm
Vaqif Səmədoğlu



Mənbə: Azerbaijan İnternational jurnali Aİ 7.3 (Payız 1999)
© Azerbaijan International

İngilis versiyasna bax:
http://www.azer.com/aiweb/categories/magazine/73_folder/73_articles/73_stalin.html

Vaqif Səmədoğlu tanınmış Azərbaycan şairi Səməd Vurğunun oğludur və özü də samballı bir şair və yazıçı kimi yetişmişdir. Burada o, Sovet İttifaqının başçılarından biri olmuş Stalin haqqında fikirlərini həyatı boyunca bir neçə dəfə nifrətdən vurğunluğa və sonra yenidən nifrətə doğru necə kəskin surətdə dəyişdiyini nağıl edir.

Həyatımda Stalin haqqında fikrimi düz üç dəfə dəyişmişəm. Uşaq vaxtı Stalin mənim "bir nömrəli düşmən"im idi. Bunun səbəbi çox sadə idi. Mən dövrünün ən sevilən şairlərdən biri olan atam Səməd Vurğuna pərəstiş edirdim. Onu dünyanın ən böyük adamı hesab edirdim, lakin ətrafıma nəzər salanda gördüm ki, insanlar atamdan çox Stalinə sadiqdirlər. Buna görə də Stalinə nifrət edirdim. Hər gün Allaha yalvarırdım ki, o ölsün.

Başa düşmək lazımdır ki, Şərqdə şairlər çox vaxt kino ulduzlarının qaldırıldığı səviyyəyə yüksəldilirlər. Atam hər dəfə otağa daxil olanda hamı hörmət əlaməti olaraq ayağa dururdu. O, həm də Yazıçılar İttifaqının sədri və Azərbaycanı Moskvada təmsil edən Sovet Parlamentinin üzvü idi.

Tezliklə mənə aydın oldu ki, Stalin haqqında düzgün fikirdə olmamışam və tədricən məndə ona qarşı vurğunluq hissi yaranmağa başladı. Mən onu ilk dəfə 1951-ci ildə gördüm. Həmin il atam məni Moskvada Kremldə Georgiyevski Zalında keçirilən Yeni İl qabağı şənliyə aparmışdı. O vaxt mənim 12 yaşım var idi. Bütün sosialist ölkələrindən yüzə qədər pioner şənliyə toplaşmışdı. Yadımdadır, mən qırmızı qalstuk taxmıçdım və Şərqi Almaniyalı bir pioner qızla vals oynayırdım. Qızın qalstuku mavi rəngdə idi.

Birdən kimsə "Saxla, saxla!" deyə qışqırdı və musiqi o dəqiqə dayandırıldı. Stalin ağ formada zala daxil oldu. Mən onu görəndə şok vəziyyətinə düşmüşdümdüm—o, çox balacaboy idi. Mən onu qapıdan çətinliklə keçəcək zəhmli bir şəxs kimi təsəvvür edirdim. Axı o bütün heykəllərində də belə təsvir olunurdu. Bakıda o vaxt televiziya olmadığından, onu əvvəllər heç görməmişdim. Televiziya Bakıya ancaq beş il sonra gəldi.

O, bizə əl elədi və bu bizə bir ağızdan: “Yaşasın Stalin” deməyimiz üçün bir siqnal rolunu oynadı. Qızlardan biri həyəcandan bayıldı. Məncə o qız ya Çindən, ya da Koreyadan gəlmişdi. Azərbaycandan orada yalnız iki nəfər var idi—mən və Mirzə İbrahimovun qızı Sevda İbrahimova. Hər ikimizin atası Ali Sovetin üzvü və şair idi.

Şənlikdə bizə o qədər hədiyyələr vermişdilər ki, onları güclə daşıyırdıq. Çoxlu oyuncaqlar və konfet dolu şüşə qablar var idi. Məncə hədiyyələrin arasında kürü də var idi. Hər bir uşağın hədiyyəsinin çəkisi 6-7 kiloqram olardı.

**Şəxsiyyətə Pərəstiş**

Atamın Stalinlə 1936-cı ildə maraqlı bir görüşü olmuşdu. Bu Sovet İttifaqının yaranmasının 15 illiyi münasibətilə keçirilən zamanı baş vermişdi. Atam Stalinin şərəfinə yazdığı şeri söyləmək üçün Kremlə dəvət olunmuşdu. Əlbəttə ki, Stalin orada idi. Atam şeri söyləyib qurtardıqdan sonra hələ tribunadan düşməmişdi ki, Stalin auditoriyadan ona müraciət edərək, “Səməd sənin adındır, Vurğun isə familiyan. Düz deyirəm?” deyə soruşmuşdu. “Yox, yoldaş Stalin,” atam cavab vermişdi.
“Vurğun mənim təxəllüsümdür.”
“Onun mənası nədir?”
“Vurulan, sevən şəxs” deyə atam cavab vermişdi.
“Qıza vurulan?” Stalin yenə də soruşaraq davam etmişdi.
“Xeyr,” o cavab vermişdi, “Vətəninə vurğun.”

Bu söhbətin səsyazması hələ də Səməd Vurğunun Bakıdakı ev muzeyində saxlanılır. Əslində atam bu təxəllüsü həqiqətən də bir qızı sevib ondan ayrılandan sonra götürmüşdü. Belə çıxırdı ki, o açıq-açığına Stalinə yalan söyləmişdi. Lakin görünür, Stalin onun cavabından tamamilə razı qalmışdı.

Ertəsi gün Stalinə milli mükafatlarla təltif olunan şairlərin siyahısını verdilər. Atam “Qızıl əmək ordeni” ilə mükafatlanacağını gözləyirdi. Amma o siyahıda adını tapa bilmədi. Stalin onu siyahıdan çıxarmışdı. Əvəzində daha nüfuzlu mükafat sayılan “Lenin ordeni” ilə təltif olunmuşdu.

Ancaq hətta atam belə Stalinin nəzərində bütün ömrü boyu yaxşı qala bilmədi. Bizə sonralar məlum oldu ki, atamın Stalinin Azərbaycanda sağ əli sayılan Mir Cəfər Bağırovla (Partiyanın Birinci Katibi) olan mübahisəsi ucbatından onun həbsi üçün plan hazırlanıbmış. Ancaq xöşbəxtlikdən, Stalin 1953-cü ildə vəfat etdi və atama qurulan plan həyata keçiriləndən qabaq Bağırov özü həbs edildi.

Stalinə rəğbət bəsləyən təkcə Sovet adamları deyildi. Qərbin Avstriya yazıçısı Stefan Sveq (1881-1942), Fransız yazıçısı Romen Roland (1866-1944) və İrlandiya yazıçısı Uilyam Rusel (1867-1935) kimi bir çox inkişaf etmiş şəxsiyyətləri də Stalinə rəğbət bəsləyirdilər. Həmçinin onların sırasında bəzi Amerikalılar da var idi.

Bu gün bunu dərk etmək nə qədər çətin olsa da, Sovet İttifaqında çoxları Stalinə pərəstiş edirdi. Baxmayaraq ki, milyonlarla insan həyatlarını onun ucbatından itirmişdi. İnsanlar

onu öz müdafiəçiləri kimi görürdülər. Ancaq hər bir insanın özünü təhlükəsiz hiss etmək ehtiyacının olması çox təbiidir. Lakin Stalinin əslində kim olduğunu başa düşənlər, adətən daha çox inkişaf etmiş şəxslər idi ki, onlar ya repressiyanın qurbanı olmuş və sürgün edilmiş ya öldürülmüş, ya da ki, susmağı öyrənmişdilər.

## Stalin Vəfat Etmişdir

1953-cü il mart ayının 3-də Stalin vəfat edən vaxt mənim 14 yaşım var idi. Yadımdadır, evdə idim və qonşunun radiosundan Stalinin ölüm xəbərini eşidən kimi yerimdən dik atıldım və qaçıb atama Stalinin vəfat etdiyini söylədim. O, mənə qışqırdı: "Səsini kəs. Ola bilməz." Sonra radionu yandırdı və bu xəbəri özü də eşitdi. O, gözlərində yaş mənə baxdı.

Demək olar ki, hamı başını itirmişdi. Heç bundan sonra nə baş verəcəyini bilmirdik. Hamı şok vəziyyətində idi - Nyu York kimi böyük bir şəhərdə valideynlərini itirən uşaq kimi. Bu dəhşətli idi. Biz Sovet İmperiyasının: "Lenin ölməmişdir və Stalin də ölməyəcəkdir. O əbədidir." ideologiyasına inanmışdıq.

Həmin gün mən məktəbə gedəndə gördüm ki, dərslər ləğv olunub. Müəllimlərimiz bizə növbəti bir neçə günü dərsə gəlməməyi tapşırdılar. Onlar deyirdi ki, indi Stalin öləndən sonra ABŞ bizi bombalaya bilər. Hamı ağlayırdı.

Müəllimlərimdən biri Anna Yakovlevna mənə tərəf əyilərək dedi: "Vaqifçik, bilirsən, Prokofyev də bu gün vəfat edib." Müəlliməm Stalinin yox, Prokofyevin vəfat etdiyinə görə ağlayırdı. Prokofyev musiqi aləmində böyük şəxsiyyətlərdən biri idi. Dəfnində yalnız 10-15 adam iştirak etmiş Prokofyevin bəxtinə Stalinlə bir gündə vəfat etmək yazılmışdı.

O gün baş verən başqa bir hadisə də yadımdadır. Qarderobdan paltomu götürüb evə getməyə hazırlaşırdım. Sveta adlı bir rus qızının arxasında dayanmışdım. Arxadan o biri uşaqlar məni itələdilər və mən təsadüfən ona dəydim. Çox güman ki, o, fikirləşdi ki, mən onu qucaqlamağa çalışırdım. O arxaya çevrildi və "Neyniyirsən, ay avara?" – dedi. Mən onun üstünə qışqırdım: "Səsini kəs axmaq. Stalin vəfat edib." Bu birdən alındı, amma indi adama gülməli gəlir.

## Dəfndə Xaos

Bacım Aybəniz və atam təcili martın 6-da Stalinin dəfninə çatmaq üçün burdan Moskvaya 36 saat yol gedən qatara mindilər. Qızıl meydana dörd milyon adam yığışmışdı. Orada həddindən çox adam toplaşdığından, yüzlərlə insan ayaq altda qalaraq öldü. Kremldə Sütunlu Zalın (Kolonnıy Zal) qarşısında dayanan bacım deyir ki, insanların sümüklərinin şıqqıltısının səsi hələ də onun qulaqlarında cingilldəyir.

Belə şaiə gəzir ki, Beriya özü qəsdən nümayişi bu şəkildə təşkil etmişdi ki, belə hadisələr baş versin. Çünki o, kütləvi yığıncaqlar təşkil etməkdə təcrübəyə malik idi, belə ki, o, Qızıl Meydanda bir çox başqa nümayişlərə, bayramlara nəzarət etmişdi. Stalinin dəfninə qədər Qızıl Meydanda keçirilən heç bir yığıncaqda bir milçəyə belə heç nə olmadığı təqdirdə, onlar bunu niyə əvvəlki kimi faciəsiz təşkil edə bilmədilər?

Əlbəttə ki, Stalinin ölümündən dərhal sonra Xruşşov Stalin şəxsiyyətə pərəstiş kultunu gözdən salmaq üçün 1956-cı ildə Stalinin əleyhinə kompaniyaya başladı. Mən o vaxt hələ ona rəğbət bəsləməkdə davam edirdim və o qədər pis olmuşdum ki, hətta əlimə keçsəydi Xruşşovu öldürərdim. Mən onun nə etməyə çalışdığını başa düşə bilmirdm.

**Ürəyin Dəyişməsi**

Stalin öləndən sonra mən yenə də onun haqda fikrimi dəyişməyə başladım. Bu hardasa 1956-cı ildə, 18 yaşımda və artıq şer yazmağa başlayan vaxtlarımda olmuşdu. Tezliklə istədiyim kimi yaza bilmədiyimi başa düşdüm. Qələmi əlimə alan gün mənə məlum oldu ki, mən qulam. Bizə pessimizm və əzab-əziyyət ifadə edən şeylər yazmağa icazə vermirdilər. Sovet adamı həmişə optimist, enerji dolu və gələcəyi qurmaq üçün mübarizə aparan şəxs kimi təsvir olunmalı idi.

1956-cı ildə Macarıstandakı hadisələrin, yəni Sovet qoşunları orada hakimiyyəti ələ keçirməsindən sonra biz işin nə yerdə olduğunu dərk etdik. O zaman müstəqillik haqqında fikirləşmirdik, lakin Moskvanın bizə qarşı siyasətində daha çox liberallıq və yumşaqlıq göstərməsinə ümid edirdik. Macarıstan və digər Şərqi Avropa dövlətləri bizdən daha müstəqil idilər. Fikirləşirdik ki, əgər onlara belə qəddar münasibət göstərilirdisə, onda o nəhəng imperiyanın tərkibində olan bir respublika kimi biz nə gözləyə bilərdik? Qoşunlar Macarıstana daxil olanda biz taleyimizin necə olacağını dərk etdik. Sonralar 1968-ci ildə Çexoslovakiyada baş verən hadisələr məni Sovet sisteminin bizə heç vaxt müstəqillik verməyəcəyinə inandırdı.

Moskvada disident ədəbiyyat Bakıda olduğu kimi o dövrlər yaranmağa başladı. Biz xarici radio stansiyalarını dinləməyə başladıq. "Xruşşovun mülayimliyi" bizi dərin yuxudan ayıltdı. Və artıq yaşa dolduğum üçün mən Stalin haqqında fikrimi daha dəyişmədim.

Stalin nədə səhv edirdi? Mən həmişə fikirləşmişəm ki, Allahın işi insanları ayrı-ayrı deyil, qrup halında müdafiə etməkdir. Digər tərəfdən isə liderin borcu insanları qrup halında deyil, ayrı-ayrılıqda müdafiə etməkdir. Allahtala hər bir kəsə müəyyən zaman çərçivəsi, insanlığa isə əbədiyyət vermişdir. Yaxşı lider Azərbaycan, azərbaycanlılar haqda deyil, hər bir Azərbaycanlının rifah halını fikirləşməlidir. O, güclü, ağıllı, təhsilli və mədəniyyətli azərbaycanlı yetişdirməyi düşünməlidir. Belə halda ölkə güclənə bilər. Əgər şəxs güclü və ağıllı vətəndaşı olsa, ölkə də güclü və qüdrətli ola bilər.

---



Tərcümə: Ülviyyə Məmmədova
Yoxladı: Gülnar Aydəmirova
Redaktə etdi və veb üçün hazırladı: Aynurə Hüseynova